**Müştərilərə akkreditivlər və zəmanətlərin buraxılması haqqında tövsiyələr**

Hazırda sənədli akkreditivin /zəmanətin buraxılması iqtisadi cəhətdən yalnız o halda əsaslandırılır ki, akkreditivin /zəmanətin məbləği 100 min ABŞ dollarından /Avrodan artıq olur. 100 min ABŞ dollarından /Avrodan az məbləğdə akkreditivlər üzrə xidmətlərin göstərilməsi çox bahalıdır, çünki xarici banklar bu cür akkreditivlər üzrə yüksək komisyon haqları tələb edir və bunlar akkreditivin dəyərini xeyli bahalaşdırır. Həmçinin 50 min ABŞ dollarından /Avrodan az məbləğdə zəmanətlər üzrə komisyon haqlarının dəyəri standart komisyon haqlarından yüksək olur. Xarici bankların komisyon haqları faizli və faizsiz (daimi) növlərə bölünür və məhz daimi komisyon haqları (məsələn 4%, ən azı 400 Avro) akkreditivin dəyərini artırır.

Sənədli əməliyyatlar sahəsində Bank Respublika-nın xidmətlərini qiymət baxımından daha cəlbedici və münasib etmək üçün biz  Bank Respublika-nın hazırkı və gələcək müştərilərinə tövsiyə edirik ki:

- 100 min ABŞ dollarından /Avrodan böyük məbləğdə akkreditivlər və zəmanətlər buraxsınlar;
- Azərbaycandan kənarda bütün komisyon haqqlarının onların kontragentinin hesabına ödənildiyini akkreditivlər və zəmanətlərdə qeyd etsinlər (lakin kontragent komisyon haqlarını ödəməkdən imtina etdiyi təqdirdə bunlar bizim müştərinin öhdəsinə qoyula bilər);
- Hissə-hissə yüklənib göndərilən malların dəyərlərini cəmləsinlər və bir akkreditiv buraxsınlar təchizatçının həmin akkreditivi qəbul edəcəyi barədə razılığını əvvəldən əldə etsinlər;
- Təsdiq edilməmiş ehtiyat akkreditivləri və bank zəmanətlərini istifadə etməyə can atsınlar;

İstənilən halda heç kəs 100 min ABŞ dollarından /Avrodan az məbləğdə akkreditiv buraxmaqdan imtina etmir, lakin müştəri bu cür akkreditivin buraxılmasının ona daha baha başa gələcəyinə hazır olmalıdır.